*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti**

*1933-cü ildən nəşr olunur*

**№ 88-89**
**(7137-7138)** ❁ **Cümə, 29 noyabr 2013-cü il** ❁ **Qəzet ayda 4 dəfə çıxır** ❁ **Qiymәti 40 qəpik**

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Prezident İlham Əliyev Varşavada keçirilən kişi şahmatçılar arasında Avropa komanda çempionatında birinci yeri qazanmış seçmə komandamızın üzvlərini və mütəxəssisləri qəbul etmişdir.

❁ ❁ ❁

Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir.

Səfər ərəfəsində Bakıda Belarus Respublikasının səfirliyinin yeni binasının açılışı olmuşdur.

Açılış mərasimində AzərbaycanPrezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko iştirak etmişlər.

❁ ❁ ❁

Belarus Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə görüşləri olmuş, dövlətlərarası sənədlər imzalanmış, Prezidentlər mətbuata bəyanatla çıxış etmişlər.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya Parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistanda ticarət məsələləri üzrə elçisini qəbul etmişdir.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikası hakimlərinin və ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında sərəncam imzalamışdır.

❁ ❁ ❁

Prezident İlham Əliyev Yaponiyanın və Yeni Zelandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnaməsini qəbul etmişdir.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ikinci dəfə «Jurnalistlərin dostu» seçilmişdir. Noyabrın 24-də bu münasibətlə mərasim keçirilmişdir. Mükafat Prezident İlham Əliyevə təntənəli şəkildə təqdim edilmişdir.

Dövlət başçısı mərasimdə giriş və yekun nitqi söyləmişdir.

❁ ❁ ❁

Prezident İlham Əliyev konqresmenlərdən ibarət ABŞ nümayəndə heyəti ilə görüşmüşdür.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.

**Miri RƏHİMOV.**

## Azərbaycan Prezidenti İlham Əliyevə «Jurnalistlərin dostu» mükafatı təqdim edilmişdir



Noyabrın 24-də respublika mediası ölkəmizə xoş bir xəbər yaydı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ikinci dəfədir ki «Jurnalistlərin dostu» seçilmişdir. İkinci dəfə belə bir fəxri ada layiq görülən şəxs yalnız Cənab İlham Əliyev olmuşdur. Bu münasibətlə geniş mərasim keçirilmişdir.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov məzmunlu təbrik nitqi söyləmişdir. Natiq çıxışının əvvəlində ölkə başçısını ikinci dəfə «Jurnalistlərin dostu» mükafatını qazanması münasibətilə bütün jurnalist həmkarları adından təbrik etmiş və ona ən xoş duyğularını bildirmişdir.

Mətbuat şurasının sədri mükafatın təsis olunma tarixindən danışaraq qeyd etmişdir ki, bu mükafat «RUH» Azərbaycan Jurnalstləri Müdafiə Komitəsi tərəfindən 1997-ci ildə təsis edilib. Niyyəti isə budur ki, cəmiyyətdə söz və mətbuat azadlığı prinsiplərini təbliğ və inkişaf etdirsin, bu məqsədlə dövlət məmurlarımızın, ictimai-siyasi təşkilatların tanınmış nümayəndələrinin kütləvi informasiya vasitələri ilə əlaqələrinin möhkəmləndirilməsinə nail olsun, bununla da mediaya qayğı ənənələrini stimullaşdırsın.

Ümummilli lider Heydər Əliyev 2002-ci ildə Jurnalistlərin dostu» mükafatının qalibi kimi çıxış etmişdir. O, bu çıxışı zamanı Azərbaycan mediyasının dünəni, bu günü və sabahı ilə əglaqədar fikirlərini söyləmişdir. Tədbirdə bu fikirlər bir daha unudulmaz xatirə kimi anılmışdır.

Mərasimdə vurğulanmışdır ki, «RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təşkil etdiyi sorğu zamanı ölkədə ictimai fikrə təsir göstərən 30 gündəlik, 15 həftəlik, 4 bölgə qəzetinin, 6 jurnalın, 11 informasiya agentliyinin, 12 xəbər portalının, 7 telekanalın, 4 radionun və 11 jurnalist təşkilatının rəyləri öyrənilmişdir. Sorğunun nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 89 faiz səslə qalib olmuşdur. Son 5 il ərzində xüsusilə KİV-lərə dövlət dəstəyinin sistemli mexanizmi yaradılmışdır. Bu özünü mətbuat orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsində, jurnalistlərin peşəkarlığının yüksəlməsində göstərməkdədir. Davamlı proseslər ictimai missiya yerinə yetirən jurnalistləri təkcə peşələrinə bağlamır, eyni zamanda, medianın cəmiyyətdəki nüfuzunu yüksəldir, ümumən demokratik cəmiyyət quruculuğunda dövlətin jurnalistikaya dəyər verdiyini, etimadını bir daha təsdiqləyir. Bunların qarantı isə dövlətin başçısı, cənab Prezidentdir.

Mərasimdə cənab Prezident İlham Əliyev geniş giriş və yekun nitqləri söyləmişdir. Ölkə başçısı əvvəlcə onu yüksək mükafata layiq gördükləri üçün jurnalistlərə minnətdarlığını bildirmiş və ikinci dəfə jurnalistlərin dostu seçilməyini böyük şərəf işi hesab etmiş, bundan sonra da Azərbaycanda azad mətbuatın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirmişdir. İlham Əliyev demişdir: «Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə ölkəmizin sürətlə və uğurlu inkişafını təmin edim».

**(Ardı 2-ci səhifədə).**

## Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2014-cü ilin yanvar ayında Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illiyi tamam olur.

Xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 noyabr 2013-cü il.*